

Universiteti bitirdikdən sonra şair yenə bir müddət doğulduğu kənddə müəllim işləyir. Və başqa bir xeyirxah işlə də məşğul olur. Rayonda çıxan "Zəhmətkeş" qəzetinin nəzdində "Dağ çiçəkləri" adlı ədəbi məclis yaradaraq rayonun şeirə, sənətə həvəskar gənclərini bir araya yığır, onlardan dəyərli məsləhətlərini, faydalı söhbətlərini əsirgəmir. Bu gün məclisin üzvü olmuş onlarla gənc artıq bir neçə şeirlər kitabının müəllifidir. Maarif Soltan isə ustadına layiq bir şairdir.

1970-ci ildə Musa Yaqub Azərbaycan Yazıçılar Birliyinə üzv seçilir. Həmin il "Bu məhəbbət yaşadır məni", üç il sonra isə "Mənim kainatım" kitabları çapdan çıxır. Artıq təbiət şairi kimi tanınan və hər yeni kitabı səbirsizliklə gözlənilən Musa Yaqub işləmək üçün şəhərə gedir. Və "Azərbaycan" jurnalına şöbə müdiri təyin olunur. Ancaq..."ayağı getsə də başı getməyən" şairin lirik qəhrəmanının ayrılıqdan doğan həzin düşüncələri şeirlərinə çox tez hopur. Onun "Bağışla məni" şeiri bu cəhətdən səciyyəvidir.

*Tutdun ətəyimdən, böyürtkən kolu,*
*Yox qala bilmərəm, bağışla məni*

"Uğurlu günədir niyyətim, yolum" deyən şair sanki bununla ətəyindən bərk-bərk yapışan o böyürtkən kolundan, şanına şeirlər qoşduğu yumruq boyda qar topasını zərif çiyinlərində qaldıran boynu bükük bənövşədən, göyərməsini ilahidən dönə-dönə arzuladığı o qara daşdan, hər şeydən, hər şeydən üzr diləyirdi.

Bütün qəlbi ilə torpağa, təbiətə bağlı olan şairin nigaran könlü şəhərə alışa bilmir. Musa Yaqubun bu yerdəyişməsini xoş qarşılamayan yazıçı Qulu Xəlilov söhbətlərinin birində demişdi: "Qorxuram Musanın şeirlərindən daha çiçək ətri yox, neft iyi gəlsin". Deyəsən şairin canında da bu qorxu var idi. Dörd il sonra doğulub boya-başa çatdığı yurda dönür və 20 ildən çox İsmayıllıda nəşr olunan qəzetin redaktoru olur. 1995-2000-ci illərdə Milli Məclisin deputatı kimi fəal ictimai iş aparır. Amma poeziya həmişə öndə gedir - bir fərqlə. Artıq Musa Yaqub poeziyasında cəmiyyət-təbiət müstəviliyi inkişaf edərək dərin fəlsəfi məna qazanır. "Nanə yarpağı", "Payızdan yaza yol varmı", "Puhumla söhbət" yenicə çap olunmuş "Bu dünyanın qara daşı göyərməz" kitablarında toplanan şeirlər dediyimizin aydın sübutudur. Bu gün Musa Yaqub yaradıcılığı qlobal genişliyə doğru irəliləyib. Əzəli Buynuzdan, İsmayıllıdan başlayan, Azərbaycanda bütövləşən bu genişliyə dünya dar gəlsə də Buynuz dar gəlmir. Şəhərə, şəhərin o geniş şadlıq saraylarına, teatr salonlarına "sığmayan" Musa Yaqub Buynuzun balaca bir düzünə "Dünyam" deyə bilir. Və o düzdə oxuyan meşənin, nəğmə deyən çayın, zümzüməsi tükənməyən bulağın, sükuta dalıb sözü şair oğluna verən bülbüllərin, torağayıların qulağı dibində yaş keçirmək ona daha xoş gəlir. Axı bura Buynuzdur! Vətənin, sevginin başladığı ünvandır. Musa Yaqubun əzəli və əbədi sevgisinin qaynağı, ilham mənbəyi Buynuz.

*Bəlkə də borcundan çıxmadım Vətən,*
*Ömür bahar deyil bir də qayıtsın.*
*Ölsəm də qoynunda qoy ölüm ki, mən,*
*Çürüyüm, bir ovuc torpağın artsın.*

**Lətifə ƏLİYEVA**

***R.S. "Mədəni-maarif"in dəyərli oxucularının diqqətinə şairin bir neçə şerini veririk.***

## GÜLLƏRİMİZ QAR ALTINDA ÜŞÜYÜR...

Güllərimiz qar altında üşüyür,
Ləçəkləri xırda-xırda tövşüyür
O qaldırır, bu oxşayır, o döyür,
Yaman isti-soyuğu var dünyanın.

Çiçək ömrü ola, o da yarımçıq
İlkin yazım qış ağzından yarım çıx.
Qaçaq düşən dovşanda bir qarıncıq
Fildə ruzu tuluğu var dünyanın.

İlk şaxtadan bağça yanır, bağ yanır,
Qoruqçunun könlü yaman dağlanır.
Kar qayada dağ kəlisi buğlanır.
Öz qoru - öz qoruğu var dünyanın.

O üşüyən sarmaşıq da xallanıb,
Buz da gəlib sallanandan sallanıb.
Hökmü verən, hökmü alan aldanıb,
Öz əmri, öz buyruğu var dünyanın.

Dəli sellər qayasıyla çarpışıb,
Axır gəlib dəryasıyla tapışıb.
Gecikənlər quyruğundan yapışıb,
Yaman uzun quyruğu var dünyanın.







## BİR YAZ GECƏSİNDƏ

*Bu gecə göylərdə durna sorağı,*
*Səma zolaq-zolaq zər içindədir.*
*Eyvanda bir kisə dibçək torpağı*
*Gördüm ki, buğlanır, tər içindədi.*

*Bildim ki, bu gecə torpaq da yatmaz,*
*Sığmaz qabığına tumlar bu gecə.*
*Çaylar da pərvazdır, daşlar da pərvaz,*
*Bəlkə rişələnir qumlar bu gecə.*

*Hələ qış yuxusu qalır yadında ,*
*Yaşıl kirpiyini hey qırpar əkin.*
*Binalar altında, yollar altında*
*Yatan torpaqlar da diksinir yəqin.*
*İndi ki, nəfəsi isinib yerin*

*İndi ki, gecəni göyərdir bu yaz.*
*Yəqin ki, beynimdə hüceyrələrin*
*Ölümü dayanıb, ləngiyib bir az.*
*Çiçəklənmək olar, gül açmaq olar*
*Bu yaz gecəsində qocalmaq olmaz.*

*Qan vurur beyninə, çırpınır tənək,*
*Yarpız düymələnib, yayılır bağa.*
*O meşə talası döşündə çiçək*
*Çıxacaq sabahı qarşılamağa.*
*Min göz var ağacın hər calağında*
*Sabah bu gözlər də çiçəklə dolar.*
*Qoy düşüm, dayanım arx qırağında,*
*Bu quru eyvanda bitməkmi olar?*

*Bu yaz gecəsində çöl, bayır oyaq,*
*Bu gecə baharla könlüm şərikdir.*
*Bu gecə bir ağac, bir yamac olmaq,*
*Bu gecə çöl olmaq bəxtəvərlikdir*
*Bu gecə göl olmaq bəxtəvərlikdir.*
*Bu gecə baharla qol-boyun olub*
*Sabaha yol almaq bəxtəvərlikdir..*

## ÖYRƏTMƏ ÖZÜNƏ, ÖYRƏTMƏ MƏNİ

**Taleyin qisməti rast saldı bizi,**
**Yolumuz hardasa qırılacaqsa**
**İtirəcəyiksə bir-birimizi**
**Xatirəm yadında qalmayacaqsa,**
**Bu əllər mənimki olmayacaqsa,**
**Bu tellər mənimki olmayacaqsa,**
**Sən allah, özünə öyrətmə məni.**
**Hicran qorxusuyla göynətmə məni.**

**Əlimi saçına öyrətmə belə,**
**Gözümü gözünə öyrətmə belə,**
**Üzümü üzünə öyrətmə belə.**

**Mən bir az baharlı budaq kimiyəm,**
**Bir az da sadəlövh uşaq kimiyəm.**
**Bala anasına qovuşan kimi,**
**Leylək yuvasına yovuşan kimi,**
Arı gül-çiçəyə uyuşan kimi
Eh, mən də adama tez yovuşanam,
Sevgi atəşində tez alışanam.
Amma ki, sönməyim çox çətin olur-
Sevgidən dönməyim çox çətin olur.
Öyrətmə özünə, öyrətmə məni.

Bəlkə gözləmirdik bu xoş görüşü
Yaman qəribədir dünyanın işi.
Heç vaxt yollarında dayanmadığın,
Heç həndəvərində dolanmadığın
Gəlib birdən sənə nə şirin olur,
Ömrünün içində ömür doğulur.
Bu şirinim acı olacaq isə,
Bir qismət çiçəyim solacaq isə,
Öyrətmə özünə, öyrətmə məni.
Könlümdə yerin var, qopmaz yerindən.
Bir əkiz ləçəyi, haça budağı
Ayırmaq olmursa biri-birindən
Məni də ayırmaq çətindir axı.
Öyrətmə özünə, öyrətmə məni.

Yox buna taqətim, yox buna tabım,
Əlimi əlindən üzmək əzabım.
Sonra bu əzaba dözmək əzabım
Yoxsa da, könlümün sınıqları var.
Hicranın köz basmış yanıqları var-
Mənim dərdlərimin ayaqları var
Harda olsa gəlib tapacaq məni,
Yaxıb-yandıracaq bu ocaq məni.
Gəl məni özünə öyrətmə belə,
Əlimi əlinə öyrətmə belə
Gözümü gözünə, öyrətmə belə...

## MƏN KÖNLÜ GİLEYİ

Mən könlü gileyli, sən qəlbi sınıq,
Hərəsi bir cürə yar tərəfindən.
Səhra bağrı yanıq... qütbünkü donuq...
Biri günəş, biri qar tərəfindən.

Ayağım qırovda, başım alovda,
Sevgim at belində, ağlım cilovda.
Kim uduzdu, gör kim uddu bu ovda
Bərəmiz alındı sar tərəfindən.

Çoxunun çəməndə işi düz oldu,
Quru xəzəlliyə düşən biz olduq,
Bircə addım atdıq küyü yüz oldu,
Qoy allah saxlasın car tərəfindən.

Sən üzü kölgəli, mən kölgə salan,
Arada mən oldum günahkar qalan,
Kor görən düz oldu, biz görən yalan
Səsimiz yayıldı kar tərəfindən.

Dözümdür, səbirdir ürəyindəki,
Tərəzi görmədi bu daş, bu çəki,
Üstünə qımışıb küləklər təki
Sənə oxşayaydı ar tərəfindən.

Xatirəli günlər könlüm əlacı,
Bir üzü şirindir, bir üzü acı,
Sənə endirilən tənə qılıncı
Qanadıb qəlbimi hər tərəfindən.

O kimdir ruhuma yaxından yaxın,
Olmazmı cismimə bir yaxın çağın,
Mənim könlüm yansın, sənin çırağın
Etdiyim bu ahu-zar tərəfindən.

# BİR GÜNAH SƏNİN, BİR GÜNAH MƏNİM

*Bir gözü mən aydım, bir gözünü sən*
*Niyə narazıyıq bu tərəzidən.*
*Sən çeşmə qurudan, mən ağac kəsən*
*Bir günah sənindir, bir günah mənim.*

*Bu südə su qatıb hərə bir qaşıq,*
*Arını şəkərə dadandırmışıq.*
*Bazarın yağı şor, balı qarışıq*
*O mətah sənindir, bu mətah mənim.*

*Söz sözə gələndə sən nəfsi qıran,*
*Mən dünya malına göz yumub duran.*
*Amma ayrılıqda daşı da yaran,*
*Bir tamah sənindir, bir tamah mənim.*

*Görürəm bu silah vurmur hədəfə,*
*Vurmur ha atırıq mininci dəfə.*
*Əlimiz dolaşıb düşüb kələfə*
*Bu əl gah sənindir, bu əl gah mənim.*

*Qoyma yalanımız qalxsın ayağa,*
*Hay deyirik, haya gəlmirik, qağa.*
*Sözü güləşdirib, əhdi danmağa*
*Bir vallah sənindir, bir vallah mənim.*

*Yamanca ustayıq hər ehtiyatda,*
*Dostluq şirnisi də dilimiz altda.*
*Amma yaman günə əlimiz altda*
*Bir silah sənindir, bir silah mənim.*

*Ömür təsəllidi, ümid sabahdı,*
*İndi öz xeyrinə çoxu ağahdı.*
*Hərə dolanışa bir cür nigahdı,*
*Bir nigah sənindir, bir nigah mənim.*

*Orda bulanıq su hopur torpağa,*
*Burda üzə çıxıb dönür bulağa*
*Hələ ki, vaxtımız var durulmağa.*
*Bir sabah sənindir, bir sabah mənim.*

# ONDA BİLƏCƏKSƏN

**İndi nazın böyük, ürəyin aram.**
**Eh mən də səninçün belə qalmaram.**

**Bir də görərsən ki, bir ərk yerin yox,**
**Qalmısan neçə yad baxışın altda.**
**Qəfil görəcəksən çətrin də yoxdur,**
**Əsirsən bir qərib yağışın altda.**
**Günəşdə üstünə kölgə salan yox,**
**Tənhasan, amma heç yada salan yox.**
**Sönüb səndən ötrü o isti ocaq.**
**Onda biləcəksən mənim sevgimi**
**Biləcəksən, o da çox gec olacaq.**

**Könlün darıxanda, lap darıxanda...**
**Kimlərsə hardansa qoşa baxanda**
**Bir də görəcəksən**
**Sən burda təksən**
**Yanında boş qalıb bir sirdaş yeri,**
**Sızlayır könlünün həmin boş yeri.**
**O sözün, o səsin, o ərkin yoxdur**
**Dərdin var,bu dərdə şərikin yoxdur.**
**Onda birdən-birə gözün dolacaq,**
**Onda biləcəksən mənim sevgimi**
**Biləcəksən, o da çox gec olacaq..**

**Məsələn, bir dəfə yeri gələndə,**
**Bir gizli vaxt tapıb güzgülənəndə**
**Bir də görəcəksən şümşad əllərin,**
**Çiyninə tökülmüş dalğın tellərin**
**Bir gülər üzün var, amma bilən yox.**
**Bu xumar gözlərlə birgə gülən yox.**
**Yoxdur bu əllərin qədirbiləni,**
**Yoxdur bu tellərin qədirbiləni.**
**Çiynin boş, əlin boş, boş qalan qucaq...**
**Onda biləcəksən mənim sevgimi.**
**Biləcəksən, o da çox gec olacaq.**

**Soraq almayanda eldən, mahaldan,**
**Yığa bilməyəndə gözünü yoldan**
**Könlün bir qanadlı söz istəyəndə,**
**Ümid qanadıyla uçum deyəndə**
**Bir də görəcəksən qanadın yoxdur.**
**Çağrılır, deyilir, adın var, amma**
**Dilimdə şipşirin o adın yoxdur,**
**Bir nağıl, bir sevgi həyatın yoxdur.**
**Gün keçib, vaxt ötüb, xatirən uzaq...**
**Onda biləcəksən mənim sevgimi.**
**Biləcəksən, o da çox gec olacaq.**